# Xalqımızın misilsiz mənəvi sərvəti




**“Muğam aləmi” 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində keçirilən elmi simpozium dünən işini sessiyalarla davam etdirib.**

“Muğamın toplama, qoruma, arxivləşmə və yayılma problemləri” mövzusunda keçirilən sessiyada azərbaycanlı mütəxəssislərlə yanaşı, Türkiyə, Böyük Britaniya, Özbəkistan və Qazaxıstandan olan alimlər də çıxış ediblər. Gün ərzində “Mətn və musiqi”, “Muğam, dəstgah və xanəndə avazı”, “Muğamın toplama, qorunma, arxivləşmə və yayılma problemləri”, “Məqam musiqisinin ruhani və cismani təzahürləri” və “Məqam musiqisi elmi mənbələr işığında” mövzularında sessiyalar keçirilib.

Qərbi Kaspi Universitetinin dosenti, sənətşünaslıq üzrə elmlər doktoru Alla Bayramova “1920-ci illərdə Cənubi Qafqaz ekspedisiyalarının materiallarında muğam” mövzusunda çıxış edib. "Muğam dünya kolleksiyalarında: mədəni irsin qorunması və müdafiəsi” mövzusunda çıxış edən Qazax Milli İncəsənət Universitetinin sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Fatima Nurlıbayeva bildirib ki, muğam Şərq ölkələrinin klassik xalq yaradıcılığı musiqisinin əsas janrıdır.

Çıxışlarda qeyd olunub ki, xalqımızın milli sərvəti olan Azərbaycan muğamları, aşıq sənəti, ümumilikdə xalq musiqisi və ifaçılıq ənənələri müasir dövrdə mədəniyyətimizi dünya səviyyəsində tanıdaraq, bu möhtəşəm sənət incilərinin inteqrasiya edilməsində olduqca zəruri rol oynayan faktordur. Muğam və xalq musiqisini, eləcə də Azərbaycan bəstəkarlıq məktəbinin dəyərli nümunələrini ifa edən və beynəlxalq arenada tanıdan məşhur və istedadlı ifaçılar nəsli yetişdirən müasir dövrümüzün ustad sənətkarları xəzinəmiz olan muğamları gələcək nəslə ötürərək qoruyub saxlanılmasında böyük rol oynayır.

Simpoziumda Azərbaycan mütəxəssisləri ilə yanaşı, ABŞ, Böyük Britaniya, Fransa, Hindistan, İsrail, Kanada, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkiyə və Yaponiyadan alimlər iştirak edirlər. Simpoziumun məqsədi yeni tədqiqat istiqamətləri, maqam əsaslı musiqinin müasirləşdirilməsi, populyarlaşdırılması və qorunması üzrə məhsuldar müzakirələr üçün əlverişli mühit yaratmaqdır.

“Muğam aləmi” 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində keçirilən elmi simpozium iyunun 22-dək davam edəcək.

***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 22 iyun.- S.10.